# Ürəklərdə yaşayan alim



**Respublikamızın tibb və əczaçılıq tarixində özünəməxsus yeri olan ictimai xadim, tibb elmləri doktoru, professor Rizvan Şeyx Bünyad oğlu Cavadov 1918-ci il dekabrın 15-də Bakının Bibiheybət kəndində anadan olub. 1924-cü ildə həmin kənddə orta məktəbi bitirmiş, 1932-1935-ci illərdə isə Azərbaycan Dövlət Tibb Texnikumunda əczaçı peşəsinə yiyələnmişdir. 1943-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirən Rizvan Cavadov elə həmin ildən əmək fəaliyyətinə başlayır. Mərəzə Rayon Səhiyyə Şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Sonrakı illərdə Səhiyyə Nazirliyində baş müfəttiş, Yevlax Rayon Səhiyyə Şöbəsinin müdiri vəzifəsində çalışan R.Cavadovun bilavasitə rəhbərliyi ilə "Qızdırma xəstəliyi" - malyariya bütünlüklə ləğv edilmiş, dəri leyşmaniozunun ləğvi üzrə iş aparılmış, visseral leyşmanioz, amobiaz və bir çox helmintozlarla xəstələnmə səviyyəsinin kəskin surətdə azalmasına səbəb olan tədbirlər planı hazırlanmışdır. O, helmintozlarla mübarizəyə geniş ictimaiyyətin cəlb olunmasının ilk təşəbbüskarı olmuşdur.**

1953-cü ildən respublika Səhiyyə Nazirliyində sanitar-epidemioloji idarəsinin rəisi, səhiyyə nazirinin kadrlar üzrə müavini, sonralar isə birinci müavini, respublikanın baş sanitar həkimi vəzifəsində çalışan Rizvan Cavadov 1960-cı illərdə respublikada malyariyanın ləğvi üzrə aparılan tədbirlərə rəhbərlik etmişdir. O illərdə R.Cavadov təkcə ölkə daxilində deyil, xarici ölkələrdə bu sahədə baş verən yenilikləri izləyir, beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirak edirdi. 1960-cı ildə Hindistan, Pakistan, İndoneziyaya səfərdə olmuş, ümumdünya əhəmiyyəti olan 9 seminar təşkil etmişdir.

Ölkədə yoluxucu və parazitar xəstəliklərlə mübarizənin təşkilində böyük xidmətləri olan Rizvan Cavadov SSRİ Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətlərinin ən fəal üzvü olmuş, N.İ.Piroqov və N.A.Semaşko adına mükafatlara layiq görülmüş, S.İ.Vasilov medalı ilə təltif olunmuşdur.

Hələ keçən əsrin 60-70-ci illərində kəskin anemiya, ağır hallarda qaraciyər, böyrək çatışmazlığı, yaddaşın itməsi, ürək fəaliyyətinin pozulması, serebral koma və s. kimi ağır fəsadlarla nəticələnən favizm xəstəliyi Azərbaycanın və eyni zamanda SSRİ-nin məşhur alimi, tibb elmləri doktoru, professor Rizvan Şeyx Bünyad oğlu Cavadov tərəfindən ətraflı öyrənilmişdir. Onun bu mövzuya həsr olunmuş "Favizm" adlı monoqrafiyasını oxuduqdan sonra bu elmi-tədqiqat işində nə qədər böyük zəhmət çəkdiyini, rus, erməni millətlərindən olan alimlərlə mübahisə, sözün əsl mənasında necə mübarizə apardığını anladım. Rizvan Cavadov bu xəstəliklə əlaqədar olaraq Azərbaycanın cənub bölgəsi - Lənkəran, Astara, Masallıda uzunmüddətli ezamiyyətlərdə olmuş, həm elmi-tədqiqat, həm də əhali arasında geniş maarifləndirmə işləri aparmışdır. Beynəlxalq elmi konfranslarda, konqres və simpoziumlarda məruzələr etmiş Rizvan Cavadov 6 monoqrafiya, 100-dən artıq elmi məqalə və 200-ə qədər elmi-kütləvi əsərin müəllifidir. Onun "Yaxın köməkçilər və həqiqi dostlar" (1967), "Təbii çiçək" (1963), "Vəba xəstəliyi və onun profilaktikası" (1970), "Görkəmli alimlər" (1970), "Azərbaycanda malyariya" (1974), "Qadın zəkası" (1975) və onlarla bu kimi məqaləsi hər dövr üçün aktual məsələlərə həsr olunmuşdur.

1975-ci ildə ilk dəfə SSRİ-də çap olunmuş "Favizm" adlı monoqrafiyası bu gün də elmi-praktik əhəmiyyətini, aktuallığını itirməmişdir.

Rizvan Cavadov 1964-cü ildə namizədlik, 1968-ci ildə isə "Favizm xəstəliyi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. O, 1964-cü ildə Azərbaycan SSR əməkdar həkimi adına layiq görülmüş, əmək və elmi fəaliyyəti 2 qırmızı Əmək Bayrağı ordeni, Fəxri Nişan ordeni, müxtəlif orden və medallarla qiymətləndirilmişdir. 1972-ci ildən ömrünün sonuna qədər Elmi-Tədqiqat Parazitologiya və Tropik Təbabət İnstitutuna rəhbərlik edən Rizvan Cavadov 1978-ci ilin fevral ayında vəfat etmişdir.

Bütün ömrünü elmi fəaliyyətə, əhalinin yoluxucu və parazitar xəstəliklərdən qorunmasına həsr edən görkəmli alim, nəcib insan Rizvan Cavadovun xatirəsi təkcə öz yaxınlarının deyil, eyni zamanda onu tanıyan hər kəsin qəlbində yaşayır.

**Faiq TAĞIYEV,**
**Əmək veteranı, ali dərəcəli cərrah,**
**tibb elmləri namizədi.**